**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)**
**Xocalı soyqırımının 21-ci ildönümü ilə əlaqədar**

**B Ə Y A N A T I**

Tarix boyu erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı qanlı cinayətlər, terror və soyqırımı aktları törədilmişdir. Çoxsaylı tarixi sənədlər sübut edir ki, erməni separatçıları yüz minlərlə azərbaycanlını öz tarixi ərazilərində etnik təmizləmə və soyqırımı siyasətinə məruz qoyaraq, kütləvi surətdə qətlə yetirmiş, zaman-zaman öz torpaqlarından deportasiya etmişlər.

Bu işğalçı dövlətin 1988-ci ilin fevralından Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi çağırışlarına keçmiş sovet rəhbərliyinin heç bir siyasi qiymət verməməsi nəticəsində Dağlıq Qarabağ və ətraf yeddi rayon daxil olmaqla Azərbaycanın əzəli torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən zəbt edilmişdir. Xalqımız misli görünməyən humanitar fəlakətlə üz-üzə qalmış, belə ki, bir milyon soydaşımız ağır qaçqın və öz vətənində məcburi köçkün həyatı yaşamaqdadır.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində erməni silahlı birləşmələrinin keçmiş sovet ordusunun Xankəndindəki 366-cı motoatıcı alayı ilə birgə törətdiyi cinayət istər Qarabağ müharibəsi, istərsə də dünya müharibələri tarixində dəhşətli nəticələrinə görə analoqu olmayan hadisələrdəndir. Şəxsi heyətində erməni zabitlərin də olduğu bu alayın çoxsaylı ağır texnikası şəhərə yeridilmiş, yaşayış evləri və şəhərin sosial infrastrukturu tamamilə dağıdılmış və yandırılmışdır. Cinayətkarlar vahimə içərisində şəhəri tərk etmək məcburiyyətində qalan dinc insanları amansızcasına qətlə yetirmişlər.

Xocalı soyqırımı zamanı adları bəlli olan 613 nəfərin, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qocanın həyatına son qoyulmuş, 487 dinc sakin ağır yaralanaraq şikəst olmuş, 1275 nəfər əsir və girov götürülmüşdür. İtkin düşmüş 150 nəfərin taleyi indiyədək məlum deyildir. Həmin kütləvi qırğın həyata keçirilərkən 8 ailə bütünlüklə məhv edilmiş, 25 uşaq hər iki valideynindən, 130 uşaq isə valideynlərinin birindən məhrum edilmiş, mülki əhali görünməmiş vəhşiliklə qətlə yetirilmiş, əsir və girov götürülənlərə amansız işgəncələr verilmişdir. Soyqırımı törədənlər Xocalı sakinlərini diri-diri yandırmış, başlarının dərisini soymuş, gözlərini çıxarmışlar. Bu zaman soydaşlarımızın əsas insan hüquqları, ən başlıcası isə təməl hüquq olan yaşamaq hüququ kütləvi şəkildə, kobudcasına pozulmuşdur.

Beynəlxalq səviyyədə heç bir sanksiyaya məruz qalmayan erməni qəsbkarlarının törətdikləri bu kütləvi insan qırğını ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə əsl vəhşilik, birmənalı olaraq, genosid faktıdır.

Beynəlxalq hüquqa görə, genosid sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayətlərdən hesab olunur. BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli 96 (I) saylı qətnaməsində qeyd olunur ki, genosid insan qruplarının yaşamaq hüququnu pozmaqla insan mənliyini təhqir edir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dayaqlardan məhrum edir. Belə əməllər BMT-nin məqsəd və vəzifələrinə, ümumbəşəri dəyərlərə tamamilə ziddir.

BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş və 1951-ci ildə qüvvəyə minən, bu il qəbul edilməsinin 65 illiyi tamam olan Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyada isə genosid cinayətinin hüquqi əsası təsbit olunmuşdur. Həmin Konvensiyaya qoşulan dövlətlər sülh, yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq, genosidin beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edərək, onun qarşısının alınması və səbəbkarlarının cəzalandırılması üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər.

Xocalı soyqırımı zamanı yol verilmiş cinayət əməllərinin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq, həmçinin dövlətdaxili hüquqa əsasən məhz genosiddir və həmin vəhşilik, vandalizm aktı insanlığa qarşı törədilən qatı cinayət kimi öz layiqli qiymətini almalıdır. Ermənistanın Azərbaycana

qarşı təcavüzü zamanı adı çəkilən Konvensiyada təsbit olunmuş genosid cinayətinin əsasını təşkil edən bütün mənfur əməllər tətbiq olunmuşdur.

Bu işğalçı ölkənin yürütdüyü soyqırımı siyasəti uzun illərdir ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki beynəlxalq hüququn ümumtanınmış normalarına görə, dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməlidir, ərazi bütövlüyünün və suverenliyin pozulması yolverilməzdir. Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya və digər müvafiq beynəlxalq hüquqi aktlar Xocalı faciəsinin soyqırımı kimi tanınmasına hüquqi əsas verir.

İşğal edilmiş Dağlıq Qarabağ və yeddi ətraf rayon Azərbaycan ərazisinin ayrılmaz tərkib hissəsidir. Bunu beynəlxalq hüquq, o cümlədən BMT Təhlükəsizlik Şurasının məlum 822, 853, 874 və 884 saylı Qətnamələri, BMT Baş Məclisinin "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı 14 mart 2008-ci il tarixli Qətnaməsi, Avropa Şurası Parlament Assambleyasının Azərbaycan ərazilərinin erməni hərbi qüvvələri tərəfindən işğal edildiyini və Dağlıq Qarabağ regionunun separatçı qüvvələr tərəfindən idarə olunmasını təsdiq edən 1416 saylı qətnaməsi və 1690 saylı tövsiyəsi bir daha sübut edir. Təəssüf ki, adıçəkilən qətnamələrin icrasında heç bir irəliləyiş yoxdur, Ermənistan tərəfi qarşısına qoyulmuş tələbləri həyata keçirmir.

Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildikdən sonra ölkəmiz bu mötəbər beynəlxalq təşkilatda söz sahibinə çevrilmişdir. Bu, respublikamızın beynəlxalq imicinin daha da yüksəlməsinin, dünya birliyindəki yerinin möhkəmlənməsinin bir daha təsdiqidir.

Azərbaycan tərəfi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə daim səy göstərir. Ümummilli liderimiz Heydər Əliyev Xocalı soyqırımının əsl mahiyyətini açıqlamış, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına hüquqi-siyasi qiymət vermişdir.

Ölkə Prezidenti cənab İlham Əliyev beynəlxalq tədbirlərdə, rəsmi görüşlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində fikir mübadiləsi aparmış, bu məsələnin ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmasının, zəbt edilmiş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin çıxarılmasının zəruriliyini qətiyyətlə vurğulamışdır.

Bu günlərdə "Xocalı soyqırımının iyirmi birinci ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilmiş, bu hadisə ilə bağlı mətbuat konfranslarının, anma mərasimlərinin və s. keçirilməsi, xarici KİV və teleradio kanallarında Xocalı soyqırımına həsr olunmuş materialların yayılması, təhsil ocaqlarında xüsusi dərslərin, xatirə gecələrinin, foto-rəsm sərgilərinin təşkili kimi tədbirlər nəzərdə tutulmuşdur.

Xalqların, bütün tərəqqipərvər bəşəriyyətin, sülhə, əmin-amanlığa, inkişafa can atdığı hazırki dövrdə Ermənistan dövləti, təəssüf ki, bu gün də etnik təmizləmə, terror, zorakılıq siyasəti yürüdür, bununla da bütövlükdə Cənubi Qafqazda, Avropa məkanında sülhyaratma və sabitlik proseslərinə mənfi təsir göstərir.

ABŞ-da yaşayan azərbaycanlılar Ağ Evin rəsmi veb-səhifəsində Xocalı soyqırımının və bu qətliamın qurbanlarının tanınması məqsədi ilə petisiya yerləşdirmişlər. Qeyd olunmalıdır ki, bu müraciət kampaniyasına səslərin sayı 100 mini keçdiyinə görə ABŞ prezidentinin Xocalı faciəsi ilə bağlı bəyanat verəcəyi və məsələnin Senatda müzakirəyə çıxarılacağı gözlənilir. Eyni zamanda Azərbaycan-Amerika Şurası və Pax Turcica təşkilatı da faciənin tanınması istiqamətində məktub kampaniyası keçirir. ABŞ-da fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları hər il Konqresə, yerli hökumətə bu qəddar cinayəti pisləyən məktublar göndərir, yerli KİV-də məqalələrlə çıxış edirlər.

Bu günlərdə ABŞ-ın Nyu-Meksiko ştatının Senatı və Arkanzas ştatının Nümayəndələr Palatası Xocalı faciəsini tanımışdır. Azərbaycan əhalisinin kütləvi qətlini təsdiq edən bu qətnamələrdə həmçinin dinc insanların, o cümlədən uşaqların, qadınların və ahılların vəhşicəsinə öldürülməsindən ətraflı bəhs edilir, qırğın törədənlərin məsuliyyətə cəlb olunması tələb olunur.

Həmin sənədlərdə deyilir ki, Xocalıda qətlə yetirilmiş insanların meyitləri eybəcər hala salınmış və təhqir olunmuşdu və bu hadisə Qarabağ müharibəsində törədilmiş ən dəhşətli qırğın idi.

Xatırladaq ki, Xocalı faciəsi bir qədər əvvəl Texas, Nyu-Cersi, Corciya və Meyn ştatlarının qanunvericilik orqanları tərəfindən də tanınmışdır.

ABŞ Konqresində Tennesi ştatının nümayəndəsi S.Koen və Konqresin Nümayəndələr Palatasının təmsilçisi D.Boren bəyanatlarla çıxış edərək, Xocalı soyqırımı zamanı hücum ərazisindən çıxmaq istəyərkən dinc əhalinin ermənilər tərəfindən işgəncələrlə öldürüldüyünü vurğulamışlar. Nümayəndələr Palatasının Pensilvaniyadan olan üzvü B.Şuster bu günlərdə Konqresdəki çıxışında Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən və Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, əhalisinin sayı təxminən yeddi min nəfər olan Xocalı şəhərində etnik azərbaycanlıların kütləvi sürətdə qətlə yetirildiyini vurğulamışdır.

Qeyd olunmalıdır ki, Human Rights Watch təşkilatı Ermənistan silahlı qüvvələri tərəfindən keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə törədilmiş bu faciəni ən böyük soyqırımı adlandırmışdır.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istiqamətində səyləri ildən-ilə daha çox dəstəklənir. Pakistan İslam Respublikasının Senatı Azərbaycanın ərazisinin 20 faizinin işğalı və ermənilər tərəfindən törədilmiş Xocalı soyqırımı ilə bağlı yekdilliklə qətnamə qəbul etmiş, Koreya Respublikasının Milli Assambleyası öz ölkəsinin Azərbaycanın regiona sülh gətirmək cəhdlərini və bu istiqamətdə fəaliyyətini dəstəklədiyini bildirmişdir.

Qeyd olunmalıdır ki, 2013-cü illin fevralında İslam Əməkdaşlıq Təşkilatının (İƏT) ali orqanı olan və 57 ölkəni təmsil edən İƏT dövlət başçılarının iştirakı ilə keçirilən İslam Zirvə Konfransının Misirin paytaxtı Qahirədə təşkil olunmuş 12-ci sessiyası Xocalı faciəsini Azərbaycanın mülki vətəndaşlarına qarşı törədilmiş soyqırımı aktı və ümumən insanlığa qarşı cinayət kimi tanımışdır. Bu qərar Zirvə Konfransının Yekun Kommunikesində bütün üzv ölkələrin konsensusu əsasında öz əksini tapıb.

İƏT-in Gənclər Forumunun "Xocalıya ədalət!" kampaniyası hazırda dünyanın 40-dək ölkəsində həyata keçirilməkdədir və məramı beynəlxalq ictimaiyyəti qanlı faciə ilə bağlı məlumatlandırmaq, həmin soyqırımına siyasi-hüquqi qiymət verilməsini təmin etməkdir. Faciənin 21-ci ildönümü ilə bağlı bu kampaniya çərçivəsində Çexiyanın Brno Texniki Universitetində və Massarik adına Universitetdə Xocalı dinləmələri keçiriləcəkdir.

Təəssüf hissi ilə qeyd olunmalıdır ki, Ermənistan 20 ildən artıq davam edən işğalçılıq siyasətinə son qoymaq əvəzinə, indi də Azərbaycanın hava məkanını pozmaq üçün müxtəlif təxribatlara yol verir, şantaj xarakterli addımlar atır. Bu işğalçı dövlət zəbt etdiyi Dağlıq Qarabağda, Xocalı yaşayış məntəqəsində aeroport tikərək, oradan uçuşlar həyata keçirməyə cəhdlər göstərir. Məlum münaqişənin diplomatik vasitələrlə həlinə mane olan və təhlükəli nəticələrə gətirib çıxaracaq bu məsələ dünya ictimaiyyəti, nüfuzlu beynəlxalq qurumalar tərəfindən dəfələrlə pislənsə də, Ermənistan tərəfi öz çirkin məqsədlərindən əl çəkmir. Avropa İttifaqı Bakı ofisinin rəhbəri R.Kobia bu məsələyə münasibət bildirərkən, təmsil etdiyi qurumun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində gərginliyi artıracaq hərəkətlərə qarşı olduğunu, münaqişənin həllini beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində dəstəklədiyini bəyan etmişdir.

Bu günlərdə Fransa senatorları Natali Qule, Jan-Mari Bokel, Andrey Rixard, Jani Lorjua Xocalı aeroportu vasitəsilə Ermənistanın uçuşlar təşkil etmək niyyətinə etiraz etmiş, bunu beynəlxalq hüquq normalarının pozulması, sülh prosesinin gecikdirilməsi kimi qiymətləndirmiş, Xocalı şəhərinin beynəlxalq səviyyədə Azərbaycanın ərazisi kimi tanındığını vurğulamışlar.

Almaniya Bundestaqının deputatı, bu ölkənin sabiq federal iqtisadiyyat naziri Mixael Qlos Xocalı aeroportu ətrafında gərginlik yaratmaqda Ermənistanın məqsədinin Dağlıq Qarabağa iddialarını möhkəmləndirmək olduğunu bəyan etmiş, məlum münaqişənin sülh yolu ilə həllinin sabitliyə və təhlükəsizliyə dəstək olacağını bildirmişdir. Bundestaqın digər deputatları Olav Gutting və Marko Vandervitz bu problemə toxunaraq, Dağlıq Qarabağın Azərbaycanın tərkib

hissəsi olduğunu qeyd etmiş, Ermənistanın Xocalı aeroportunu açacağı təqdirdə problemin sülh yolu ilə həllinə maneələr yaranacağını vurğulamışlar.

Britaniya parlamentinin deputatı Kristofer Pinçer Xocalı aeroportunun fəaliyyət göstərməsinin qeyri-qanuni olduğunu, Azərbaycan hökumətinin sanksiyası olmadan ölkənin hava məkanında icazəsiz uçuşlara yol verilmədiyini qeyd etmişdir.

Ermənistan Azərbaycanın hava məkanında Bakının icazəsi olmadan uçuşlar həyata keçirəcəyi təqdirdə, bir sıra beynəlxalq hüquq normalarını, ən başlıcası isə "Beynəlxalq mülki aviasiya haqqında" Çikaqo Konvensiyasının müddəalarını pozmuş olardı.

Dünya ictimaiyyəti ölkəmizin ərazi bütövlüyünün bərpasını dəstəkləyir və qəbul edir ki, Azərbaycanın ərazisi işğal olunub, Dağlıq Qarabağ güc yolu ilə onun nəzarətindən çıxarılıb. Xocalı soyqırımına hələ də beynəlxalq miqyasda hüquqi qiymət verilməməsi, terrorçu əməllərə qarşı qəti tədbirlər görülməməsi hiddət və təəssüf hissi doğurur. Beynəlxalq təşkilatlar ikili standartlara yol vermədən məlum münaqişənin həllinə yönəlmiş səylərini beynəlxalq hüquq norma və prinsiplərinə tam uyğun olaraq daha da artırmalı, səlahiyyətli beynəlxalq qurumlar tərəfindən bu hadisə genosid aktı kimi tanınmalı, Ermənistan dövlətinə qarşı sanksiyalar tətbiq edilməlidir. Bu işğalçı dövlət ərazi iddialarından əl çəkərək, münaqişə ilə bağlı qəbul edilmiş beynəlxalq sənədlərin müddəalarını yerinə yetirməli, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı, azərbaycanlı əsir və girovlar azad olunmalı, pozulmuş hüquqları bərpa edilməklə qaçqın və məcburi köçkünlər öz doğma yurdlarına qayıtmalıdır.

**Elmira Süleymanova**
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)

**18 fevral 2013-ci il**

Bəyanat BMT-nin Baş Katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, Avropa Komissiyasına, Avropa Şurasına, ATƏT-ə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, Beynəlxalq Sülh Bürosuna, Universal Sülh Federasiyasına, müxtəlif ölkələrin ombudsmanlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına ünvanlanmışdır.